# Yeni əsrin yeni nəfəsləri...

## Milli musiqi dəyərləri sistemində ənənəvi janr və formalarla bahəm, çalğı alətlərinin də xüsusi yeri və rolu var

Lalə Hüseynova,
Azərbaycan Milli Konservatoriyasının
elmi işlər üzrə prorektoru,
sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent

> Ulu muğamlarımız - tar-kamansız, aşıq sənətimiz - sazsız təsəvvür edilməz. Mütəxəssislərin fikrincə, hər bir musiqi aləti həm də mənsub olduğu xalqın etnik səs idealının təzahürü olmaqla, özündə məxsusi bir tarixçə yaşadır. Qədim Şərqin tərkib hissəsi olan Azərbaycanın özünəməxsus etnik səs məkanının yaranmasında və əsrlərlə formalaşmasında da şübhəsiz, milli musiqi alətlərinin rolu vacibdir

Hazırda Azərbaycanda istifadə olunan alətlər də uzun təkamül yolu keçib, bəziləri isə müəyyən səbəblər üzündən müasir musiqi-ifa təcrübəsindən kənarda qalıbdır. Bu baxımdan Azərbaycan Milli Konservatoriyasında təqdimatı keçirilən "Milli musiqi alətlərinin təkmilləşdirilməsi" layihəsindən söz açmaq yerinə düşərdi

### Zərif sədalı santur

İran Azərbaycanında geniş istifadə olunsa da, təəssüf ki, bu gözəl musiqi aləti respublikamızda hələ də real musiqi təcrübəsinə yol tapa bilməyib. Təkmilləşmiş alətlər arasında "Azərbaycan santuru" kimi təqdim edilən alətin özəlliyi onun 12 xərəkli və xromatik 3 oktava səslənmə diapazonuna malik olmasındadır. Alət üzərində təkmilləşmə işləri aparmış AMK milli musiqi alətlərinin təkmilləşdirilməsi elmi-tədqiqat laboratoriyasının rəhbəri Məmmədəli Məmmədov simlərin dartı qüvvəsini sabitləşdirməyə də nail olub ki, bu, çalğı zamanı onların gərginləşərək qırılmamasını təmin edir. Fortepianonun sələfi olmuş bu qədim Şərq aləti bənzərsiz tembri ilə istənilən milli musiqi ansamblı və xalq çalğı alətləri orkestrlərimizin tərkibində sırf Avropa aləti olan pianonu əvəz edə bilərdi. Bu isə həmin kollektivlərin nəinki milli, eyni zamanda, məxsusi Şərq ruhunu və simasını tam mənada bərpa etmiş olardı. Xatırladaq ki, vaxtilə bir çox görkəmli


İran mütəxəssisi Abed Aghanejad

musiqi xadimlərimiz, o cümlədən Qara Qarayev, Aqşin Əlizadə milli musiqi ansambllarında pianonun yer almasını məqsədəuyğun hesab etmirdilər (və təsadüfi deyil ki, 1932-ci ildə yaradılmış notlu Xalq çalğı alətləri orkestrinin ilk tərkibində də piano aləti yox idi).





### Çəng - müasir arfa alətinin sələfi

XIX əsrdə artıq istifadədən çıxmış və unudulmağa məhkum olmuşdur. Yalnız ötən əsrin 70-ci illərində görkəmli mütəxəssis, professor, mərhum Məcnun Kərimovun böyük səyi nəticəsində, bir sıra qədim musiqi alətlərimiz kimi, Orta əsrlərdə Azərbaycanın saray mühitində geniş yayılmış çəng də bərpa olunaraq həyata qaytarılıb.

> Hazırda canlı muzey eksponatı kimi bütün dünyanı dolaşan Qədim Musiqi Alətləri ansamblında cazibədar görünüşü ilə ən çox diqqət çəkən alət də, zənnimizcə, çəngdir.

Təqdimat zamanı səsləndirilən təkmilləşmiş çəng, sim sayının artması (27-dən 44-ə) və daha rahat köklənməsilə ilkin bərpa variantından fərqlənirdi. Lakin bu alətin də müasir musiqi təcrübəsinə inteqrasiyası üçün hələ çox işlər görülməlidir. Elə bunu demək kifayətdir ki, respublikamızda çəngin hələlik yalnız bir ifaçısı vardır...


Azərbaycanda yeganə çəng ifaçısı Fazilə Rəhimova

## Bir qədər də kamançanın bəm registrli növləri haqda...

Təqdimatın səbirsizliklə gözlənilən anı - sonda kamança alətinin bəm registrli növlərinin nümayişi oldu. Xüsusi vurğulamaq lazımdır ki, XX əsrdə xalq çalğı alətləri ansambılları və orkestrlərinin yaranması aşağı registrə malik alətlərə böyük tələbat yaratmışdır. Elə vaxtilə royal kimi universal bir alətin orkestrlərin tərkibinə salınması həmin çatışmazlığın aradan qaldırılmasına bir cəhd idi. Lakin, əslində, problem hələ çözülməmiş qalır. Bu məsələ zaman-zaman gündəmə gəlsə də, həllini indiyə qədər tam şəkildə tapa bilməyib. Halbuki, hələ sovetlər dönəmində bir çox müttəfiq respublikalarda, o cümlədən Orta Asiya və qonşu Zaqafqaziya respublikalarında, milli nəfəs və simli alətlərin müxtəlif növləri yaradılmış və müvafiq orkestrlərin tərkibinə daxil edilmişdir. Bu barədə 1975-ci ildə Moskvada nəşr olunmuş "SSRİ xalqlarının musiqi alətləri atlası" müfəssəl məlumat verir.

Zəngin informasiyalar toplusu olan bu sanballı ensiklopedik nəşrdən bəlli olur ki, balaban, tar və kamançanı hər zaman öz milli alətləri kimi təqdim edən bədxah erməni qonşularımız artıq keçən əsrin birinci yarısında "Şərq simfonik orkestrinin alətləri" adı ilə guya onların müxtəlif registrli növlərini (yəni ailəsini) də düzəldib ortaya qoyublar. Kamançaların bəm növləri istər zahiri forması, istərsə də quruluşu baxımından mövcud analoqlarından fərqlənir. Ona görə də bu kamançaların adında da fərq vardır.

Bəm registrli alət adı kamançaya oxşar olduğuna görə "bəm kamança", digərləri isə iki çanaqdan ibarət olduğuna görə, müvafiq olaraq "qoşaçanaq bas kamança" və "qoşaçanaq kontr kamança" adlandırılıb. Bu kamançaların diapazonu isə, zənnimizcə, milli orkestrlərimizdə bas partiyaların ifası üçün yaxşı imkanlar yarada bilər.


Kamança alətinin bəm registrli növlərinin nümayişi


AMK-nın milli musiqi alətlərinin təkmilləşdirilməsi elmi-tədqiqat laboratoriyasının rəhbəri Məmmədəli Məmmədov

## Bizim müsahibə:

***Azərbaycan Milli Konservatoriyasının elmi işlər üzrə prorektoru Lalə Hüseynovanın bu fikirlərindən sonra, alətlərlə daha yaxından tanış olmaq, bəzi suallarımıza cavab tapmaq məqsədilə Məmmədəli Məmmədovla görüşdük.***

Haqqında danışdığımız alətləri böyük ustalıqla hazırlayan, onlara rəngarəng bəzəklər vuran, səslərinin bəzən xoş insan səsinə bənzəməsini arzulayan, - bir sözlə, alətlərin hər mənada nazını çəkən AMK milli musiqi alətlərinin təkmilləşdirməsi elmi-tədqiqat laboratoriyasının rəhbərilə səmimi söhbətimizi dəyərli oxucularımızın da diqqətinə çatdırırıq.




Azərbaycan Milli Konservatoriyasının rektoru Siyavuş Kərimi

**- Tarixi xalq çalğı alətlərimizin bəzilərinin malik olmadığı səs diapozonunu yaradan, alətlərin təkmilləşməsi və yeni yarananların vizual görkəmində dəyişiklik və əlavələrin müəllifi kimi, sizcə, bu yeniliklər digər xalq musiqiçiləri tərəfindən normal qavranılacaqmı?**

- Bəri başdan deyim ki, çəng musiqi aləti birmənalı olaraq Azərbaycana məxsusdur. Santur musiqi alətinə gəldikdə isə, bunun Azərbaycan mənşəlisinin də haqqında tədqiqat işləri var. Yəni, biz öz santurumuzu yaratdıq - İran santurunu gətirib ortaya qoyub çalmadıq ki? Araşdırmalar nəticəsində dünyəvi santurdakı problemləri gördük və onun bütün mənfi-müsbətinə istinadən özümüzünkünü - milli Azərbaycan santurunu yaratdıq. Burada fərqlər çoxdur. Simlərin - birincidən sonuncuya kimi - dartı qüvvələrini bərabərləşdirdik. Digər ölkələr də ki, bunun timsalında mükəmməl bir nümunə gördülər. Bununla bağlı qonşu dövlətlərdə sahə biliciləri, alət ustaları ilə məsləhətləşmələr aparıldı, yekdil qərara gəlindi ki, bəli, xeyli problemləri olan santurda bizim təklif etdiyimiz variant təqdirəlayiqdir. Əgər başqa xalqların mütəxəssisləri bunu belə asanlıqla qavradılarsa, musiqiçiləri də çox çətinlik çəkməzlər. Həm də bilindiyi kimi, pianinonun anası hesab edilən santurun indi xalq çalğı alətləri orkestrində özünəməxsus yeri vardır.

**- Avropa simfonik orkestrlərinin səs diapozonu 6-7 oktava, bizim xalq çalğı alətlərində isə 2,5-3 oktavaya bərabərdir. Bəs bu problemin həllilə bağlı nə əldə edirik?**

- Orkestrimizdə sup kontr, kontr, böyük və kiçik oktava səslərini əldə etməklə, Azərbaycan xalq çalğı alətlərinin səs diapozonu simfonik orkestrin səs diapozonu ilə bərabərləşmiş oldu. Beləliklə, milli orkestrimizdə böyük səs diapozonuna malik olan dünyəvi, milli əsərləri ifa etmək münkünlüyünə nail olduq. Bunun həlli üçün laboratoriyamızda uzun illər eksperimental işlər görüldü. Təkmilləşmiş fadeiz mi, bəm və yeni yaranan bas və kontur kamança musiqi alətləri üçün bizə lazım olan nəticələr alındı.

**- Təkmilləşmə işlərinə qədər vaxt aparıb?**

- Tar əsrlərdir mövcuddur, amma biz bu gün də onu təkmilləşdirmə, elm hər gün inkişaf edir və aldığımız yeni biliklər bizimçün yeni imkanlar yaradır. Yəni, heç bir sahənin inkişafında son hədd, heç nəyin konkret zamanı, vaxtı yoxdur.

**- Deyəsən, təkmilləşən alətlərin tədrisə daxil edilməsində problemlər var...**

- Əlbəttə... Xüsusən, bu sahə üzrə müəllimlərin hazırlığında. Bunlar beş-on günün, beş-üç ayın işi deyil. Biz hələ santur ifaçısını Arazın o tayından - İrandan dəvət etmişik. Bu aləti ifa edən musiqiçilər özümüzdə hazırlanmalıdır ki, onlar da zaman-zaman tələbələr yetişdirə bilsinlər. Neçə illərdir santur alətinin Azərbaycanda musiqi tədrisi prosesinə salınması barədə məsələ gündəmdədir. İnanıraq ki, alət üzərində aparılan və davam edən təkmilləşdirmə işləri onun musiqi həyatımıza üzvi şəkildə daxil olması ilə nəticələnəcəkdir.

**- Bu günədək təkmilləşdirdiyiniz musiqi alətlərinin sayı...**

- Sayını dəqiq deyə bilmərəm. Bir onu deyə bilərəm ki, bunların 90 faizi mənim işlərimdir. 17-18 "müəllif hüquqları"m var. Bəli, hamımızın doğum haqqında şəhadətnaməmiz olduğu kimi, yeni alətlərə də müəlliflik hüququ sənədi verilir.

**- Daha hansı musiqi aləti üzərində işləməyi düşünürsüz?**

- Tar alətinin səs diapazonu üzərində işlər gedir. Yüz illərdir, cəmi bir cür tarımız var. Bəs kontur tar var? Yox, hələ ki, yaradılmayıb. Amma mən buna çalışıram. Yerə qoyulub çalınan tarın və bas tarın təkmilləşməsi ilə də məşğuluq...

Gülşanə Mustafayeva